# Azərbaycan Respublikası
# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

# Məşğulluğa Dəstək Layihəsi (P171250)

# ƏTRAF MÜHİT və SOSİAL ÖHDƏLİK PLANI (ƏMSÖP)

**Dekabr, 2019-cu il**

**ƏTRAF MÜHİT VƏ SOSİAL ÖHDƏLİK PLANI**

1. Azərbaycan Respublikası aşağıdakı nazirlik və agentliklərin iştirakı ilə "Məşğulluğa Dəstək" Layihəsini (Layihə) həyata keçirəcəkdir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN), Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Statistika Komitəsi. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (bundan sonra Bank) Layihənin maliyyələşdirilməsini təmin etməyə razıdır.

2. Azərbaycan Respublikası Layihənin Ətraf Mühit və Sosial Standartlara *(ƏMSS)* uyğun olaraq həyata keçirilməsi üçün maddi tədbirlər və işlər görəcək. Bu Ətraf Mühit və Sosial Öhdəlik Planı *(ƏMSÖP)* maddi tədbirlər və işləri, hər hansı xüsusi bir sənəd və ya planı, habelə bunların hər biri üçün vaxtı müəyyən edir.

3. Azərbaycan Respublikası həmçinin Ətraf Mühit və Sosial çərçivədə tələb olunan və bu ƏMSÖP-də istinad olunan Ətraf Mühit və Sosial İdarəetmə Çərçivəsi (ƏMSİÇ), Ətraf Mühit və Sosial İdarəetmə Planları (ƏMSİP), Əmək Resurslarının İdarə edilməsi Qaydaları (ƏRİQ) Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planları (MTQƏP) kimi hər hansı digər Ətraf Mühit və Sosial sənədlərin müddəalarına və həmin ƏMS sənədlərdə qeyd edilmiş müddətə əməl edəcək.

4. Müəyyən tədbir və işlər yuxarıda 1-ci bənddə qeyd edilmiş nazirlik, qurum və ya bölmə tərəfindən həyata keçirildikdə belə Azərbaycan Respublikası ƏMSÖP-ün bütün tələblərinə əməl olunmasına görə məsuliyyət daşıyır.

5. Bu ƏMSÖP-də qeyd edilmiş maddi tədbir və işlərin həyata keçirilməsi ƏMSÖP və hüquqi müqavilənin şərtləri ilə tələb olunduğu kimi Azərbaycan Hökuməti tərəfindən izləniləcək və Banka bildiriləcəkdir, Bank isə Layihənin icra müddətində maddi tədbir və işlərin gedişatını və tamamlanmasını izləyəcək və qiymətləndirəcək.

6. Bank və Azərbaycan Respublikası tərəfindən razılaşdırıldığı kimi bu ƏMSÖP Layihənin icra müddətində zaman-zaman Layihə dəyişiklikləri və gözlənilməz halların çevik idarə edilməsini əks etdirmək və ya ƏMSÖP-ün özü tərəfindən həyata keçirilən Layihənin icrasının qiymətləndirilməsinə cavab olaraq yenidən nəzərdən keçirilə bilər. Belə hallarda Azərbaycan Respublikası ƏƏSMN vasitəsi ilə Bankla birlikdə edilmiş dəyişikliklərlə razılaşacaq və bu dəyişiklikləri əks etdirmək üçün ƏMSÖP-ü yeniləyəcəkdir. ƏMSÖP-ə edilmiş dəyişikliklərə razılıq Bankla ƏƏSMN arasında imzalanan məktub mübadiləsi vasitəsi ilə sənədləşdiriləcək. ƏƏSMN yenilənmiş ƏMSÖP-ü dərhal açıqlayacaq.

7. Layihə dəyişiklikləri, gözlənilməz hallar və ya layihənin icrası Layihə həyata keçirildiyi zaman risk və təsirlərin dəyişməsi ilə nəticələndiyi halda, Azərbaycan Respublikası lazım olduqda aşağıdakıların da daxil olduğu bu kimi risk və təsirləri aradan qaldırmaq məqsədilə tədbir və işlər həyata keçirmək üçün əlavə vəsait təmin edəcək: (a) *ətraf mühit, sağlamlıq və təhlükəsizlik riskləri* (b) *sosial risklər və təsirlər*

| | MADDİ TƏDBİRLƏR VƏ İŞLƏR | MÜDDƏT | MƏSUL QURUM/ORQAN |
|---|---|---|---|
| **NƏZARƏT VƏ HESABAT** | | | |
| A | **MÜNTƏZƏM HESABAT VERMƏ**<br>ƏMSÖP-ün icrası, ƏMSÖP çərçivəsində tələb olunan ƏMS sənədlərin hazırlanma və icra mərhələsi, maraqlı tərəflərlə qarşılıqlı əlaqə fəaliyyətləri, şikayət mexanizminin (mexanizmlərinin) fəaliyyəti də daxil olmaqla, lakin bunlarla məhdudlaşmayaraq Layihənin ətraf mühit, sosial, sağlamlıq və təhlükəsizlik (ƏMSST) göstəriciləri barədə müntəzəm nəzarət hesabatlarının hazırlanması və Banka təqdim edilməsi. | *Layihənin icra müddəti ərzində hər altı aydan bir* | ƏƏSMN |
| B | **HADİSƏ VƏ QƏZALAR**<br>Böyük miqdarda çirkləndirici və zərərli materialların təsadüfən tökülməsi; əməyin mühafizəsi və təhlükəsizliyi ilə bağlı ciddi xəsarətlər; və yol qəzaları da daxil olmaqla ətraf mühitə, təsir görən cəmiyyətlərə, ictimaiyyətə və ya işçilərə əhəmiyyətli dərəcədə mənfi təsiri olan və ya ola biləcəyi ehtimal olunan Layihə ilə əlaqədar hər hansı bir hadisə və ya qəza barədə dərhal Banka məlumat verilməsi. | *Hadisə və ya qəzanı öyrəndikdən sonra 48 saat ərzində Banka məlumat verilməli* | ƏƏSMN |
| | Hadisə və ya qəza ilə əlaqədar təcili tədbirlərin görüldüyünü və ya onun aradan qaldırılması üçün görülməsi planlaşdırıldığını və lazımi hallarda hər hansı bir podratçı və nəzarət edən qurum tərəfindən verilmiş hər hansı bir məlumatı göstərməklə hadisə və ya qəza ilə bağlı kifayət qədər məlumat verilməsi. Nəticədə, hadisə və ya qəza barədə hesabatın hazırlanması və hadisənin təkrarlanmasının qarşısını almaq üçün hər hansı tədbirlərin təklif edilməsi. | *Sonrakı hesabat tələb olunduğu üzrə Bank üçün məqbul bir müddət ərzində təqdim edilməlidir* | ƏƏSMN |
| **ƏMSS 1: ƏTRAF MÜHİT VƏ SOSİAL RİSK VƏ TƏSİRLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ İDARƏ EDİLMƏSİ** | | | |
| 1.1 | **TƏŞKİLATİ STRUKTUR:** ƏMSS, ƏMSÖP və müvafiq sənədlərə tam uyğunluğu təmin etməkdən məsul ən azı bir sosial inkişaf üzrə mütəxəssis və bir ətraf mühit üzrə mütəxəssisin daxil olduğu ƏMS risklərin idarə edilməsini dəstəkləyən ixtisaslı işçilərlə ƏƏSMN-in Məşğulluq Siyasəti şöbəsi daxilində təşkilati bir strukturun (ƏƏSMN daxilində Layihənin İcra Qrupu-LİQ) yaradılması. Layihənin icra müddəti ərzində təşkilati strukturun saxlanılması. | *Effektivlikdən asılı olaraq yaradılacaq və bundan sonra Layihənin icra müddəti ərzində saxlanılacaq.* | ƏƏSMN |

| | | | |
|---|---|---|---|
| 1.2 | **EKOLOJİ VƏ SOSİAL QİYMƏTLƏNDİRMƏ:** Alt layihə üçün xüsusi ekoloji və sosial risklərin qiymətləndirilməsi və alt layihə üçün xüsusi Ətraf Mühit və Sosial İdarəetmə Planlarının (ƏMSİP) hazırlanması qaydaları və prosedurlarını müəyyən edən Ətraf Mühit və Sosial İdarəetmə Çərçivəsi (ƏMSİÇ) sənədinin yekunlaşdırılması. | *Layihənin Qiymətləndirilməsi başa çatana kimi.* | ƏƏSMN |
| 1.3 | **İDARƏETMƏ VASİTƏLƏRİ VƏ SƏNƏDLƏRİ:** ƏMSİÇ sənədinə uyğun olaraq təklif olunan istənilən alt layihənin nümayiş etdirilməsi və bundan sonra zəruri hallarda Bank üçün məqbul bir şəkildə alt layihə üçün xüsusi ƏMSÖP-ün hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi. | *Hər bir fərdi alt layihə üzrə işlərin başlanılmasından əvvəl.* | ƏƏSMN |
| 1.4 | **TEXNİKİ YARDIM:** Araşdırmalar, potensialın artırılması və Layihə çərçivəsində göstərilən hər hansı digər texniki yardım üçün texniki tapşırıqlar ƏMSS-lərin tələblərini müvafiq qaydada özündə ehtiva edəcək və nəzərə alacaqdır. | *Layihənin icra müddəti ərzində.* | ƏƏSMN |
| **ƏMSS 2: ƏMƏK VƏ İŞ ŞƏRTLƏRİ** | | | |
| 2.1 | **ƏMƏYİN İDARƏEDİLMƏSİ PROSEDURU :** Əmək Resurslarının İdarə edilməsi Qaydalarının (ƏRİQ) qəbul edilməsi və həyata keçirilməsi. | *Layihənin icra müddəti ərzində.* | ƏƏSMN |
| 2.2 | **LAYİHƏ İŞÇİLƏRİ ÜÇÜN ŞİKAYƏT MEXANİZMİ:** Layihə işçiləri üçün ƏRİQ-də təsvir olunduğu kimi və ƏMSS2-yə uyğun olaraq şikayət mexanizminin yaradılması, saxlanılması və istifadə edilməsi. | *Effektivlikdən asılı olaraq yaradılacaq və Layihənin icra müddəti ərzində istifadə ediləcəkdir.* | ƏƏSMN |
| 2.3 | **LAYİHƏ İŞÇİLƏRİNİN TƏLİMİ:** Risklər barədə məlumatlılıq səviyyəsini artırmaq və yerli cəmiyyətlərə təsirləri azaltmaq üçün hazırlanmış Layihə işçiləri təlimlərinin həyata keçirilməsi. | *Layihənin illik Təlim Planına uyğun olaraq.* | ƏƏSMN |
| **ƏMSS 3: RESURSLARIN SƏMƏRƏLİLİYİ, ÇİRKLƏNMƏNİN QARŞISININ ALINMASI VƏ İDARƏ EDİLMƏSİ** | | | |
| | Alt layihə üçün xüsusi ƏMSÖP-lər vasitəsilə və layihə üzrə təqdim ediləcək təlim proqramları və məsləhət xidmətlərinin bir hissəsi kimi resursların səmərəliliyi və çirklənmənin qarşısının alınması təcrübələrinin təqdim edilməsi. | *Layihənin icra müddəti ərzində* | ƏƏSMN |
| **ƏMSS 4: İNSAN SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ** | | | |

| | | | |
|---|---|---|---|
| | SƏTƏM Təlimatlarına uyğun olaraq cəmiyyətin sağlamlığı və təhlükəsizliyi müddəalarının cəmiyyətlərin sağlamlığına və təhlükəsizliyinə kiçik maneə və/və ya təsir riskini aradan qaldırmaq məqsədilə layihə üzrə təqdim ediləcək alt layihə üçün xüsusi ƏMSÖP-lərə, təlim proqramlarına və məsləhət xidmətlərinə daxil edilməsi. | *Layihənin icra müddəti ərzində* | ƏƏSMN |
| **MSS 5: TORPAQLARIN ALINMASI, TORPAQDAN İSTİFADƏNİN MƏHDUDLAŞDIRILMASI VƏ MƏCBURİ KÖÇÜRÜLMƏ** | | | |
| | Bu ƏMSS layihəyə uyğun deyil | | |
| **ƏMSS 6: BİOMÜXTƏLİFLİYİN QORUNMASI VƏ CANLI TƏBİİ EHTİYATLARIN DAVAMLI İDARƏ OLUNMASI** | | | |
| | Canlı təbii ehtiyatların davamlı idarə edilməsi prinsiplərinin xüsusilə kənd əhalisini hədəf alan layihələr çərçivəsində təqdim ediləcək alt layihə üçün xüsusi ƏMSÖP-lərə, təlim proqramlarına və məsləhət xidmətlərinə daxil edilməsi ilə biomüxtəlifliyə və canlı təbii ehtiyatlara potensial kiçik təsirlərin aradan qaldırılması. | *Layihənin icra müddəti ərzində* | ƏƏSMN |
| **ƏMSS 7: YERLİ XALQLAR/SUB-SAXARA AFRİKANIN TARİXƏN DİQQƏTDƏN MƏHRUM QALMIŞ ƏNƏNƏVİ YERLİ İCMALARI** | | | |
| | Bu ƏMSS layihəyə uyğun deyil | | |
| **ƏMSS 8: MƏDƏNİ İRS** | | | |
| | Bu ƏMSS layihəyə uyğun deyil | | |
| **ƏMSS 9: MALİYYƏ VASİTƏÇİLƏRİ** | | | |
| | Bu ƏMSS layihəyə uyğun deyil | | |
| **ƏMSS 10: MARAQLI TƏRƏFLƏRLƏ DİNLƏMƏLƏR VƏ MƏLUMATLARIN AÇIQLANMASI** | | | |
| 10.1 | **MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI FƏALİYYƏT PLANININ HAZIRLANMASI VƏ HƏYATA KEÇİRİLMƏSİ:** Layihə üçün hazırlanan Maraqlı Tərəflərlə Qarşılıqlı Fəaliyyət Planının (MTQFP) qəbul edilməsi, baxılması və həyata keçirilməsi | *Layihənin icra müddəti ərzində.* | ƏƏSMN |
| 10.2 | **LAYİHƏ ÜZRƏ ŞİKAYƏT MEXANİZMİ (ŞM):** MTQFP-də təsvir olunduğu kimi müvafiq qaydada nəzarət və hesabat verilməsi ilə şikayət mexanizminin hazırlanması, saxlanılması və istifadə edilməsi. | *ŞM effektivlikdən asılı olaraq yaradılacaq və Layihənin icra müddəti ərzində istifadə ediləcəkdir.* | ƏƏSMN |
| **POTENSİALIN DƏSTƏKLƏNMƏSİ (TƏLİM)** | | | |

| | | | |
|---|---|---|---|
| PD1 | 1. Layihənin konsepsiyası, strategiyaları və Ətraf Mühit və Sosial Çərçivə (ƏƏSMN və məsləhətçi tərəfindən Layihənin reallaşdırılması üzrə qrupa);<br>2. Yerli Dövlət Məşğulluq Xidmətlərinə təlimçi hazırlamaq üçün Maraqlı Tərəflərlə Qarşılıqlı Fəaliyyət Planı (Layihənin İcra Qrupu -LİQ tərəfindən Dövlət Məşğulluq Xidmətlərinə);<br>3. Şikayətlərin Təmin edilməsi Mexanizminin (ŞTM) yaradılması və saxlanılması<br>4. Gender əsaslı zorakılıq (GƏZ), cinsi istismar və sui-istifadə (CİSİ), GƏZ ŞTM ilə bağlı risklərin qiymətləndirilməsi və azaldılması (məsləhətçi tərəfindən Layihənin İcra Qrupuna -LİQ və Dövlət Məşğulluq Xidmətlərinə);<br>5. Sosial və Ekoloji Yoxlama (Məsləhətçi tərəfindən ƏMSÇ vasitələrini icra etməkdən məsul Layihənin İcra Qrupuna -LİQ /ƏƏSM işçilərinə);<br>6. Effektiv ictimai görüş və məsləhətləşmələrin aparılması (məsləhətçi tərəfindən Layihənin İcra Qrupuna -LİQ və Dövlət Məşğulluq Xidmətlərinə). | *İllik Təlim Planına uyğun olaraq - Layihənin effektivliyindən asılı olaraq hazırlanacaq və hər il yenilənəcəkdir.* | ƏƏSMN |